

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 100 (23.512)

26 iyun 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Mingəçevir şəhərində səfərdə olub.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Mingəçevir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

* * *

Prezident İlham Əliyevin iştirakı ilə həmin gün "Azərbaycan" İstilik Elektrik Stansiyasının 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 enerji bloku, İdarəetmə Dispetçer Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğuları əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında iştirak edib.

* * *

Dövlətimizin başçısı həmin gün Mingəçevirdə Dövlət Rəmzləri Muzeyinin açılışında da iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 25 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələr verilmişdir. Ölkə Prezidentinin həmin Sərəncamına əsasən Əlahiddə Ümumqoşun Ordu komandanı

**general-leytenant**
**Kərəm Nəriman oğlu Mustafayevə**

"general-polkovnik" ali hərbi rütbəsi verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 25 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş şəxslər təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Ağalarov Fazil Köçəri oğlu – general-mayor**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə,

**Əlibəyov Elxan Əlibəy oğlu – general-mayor**
**Seyidov İlham İsrayıl oğlu – polkovnik**

"Vətən uğrunda" medalı ilə,

**Hümbətov Ramal Səlim oğlu – mayor**
**Təhməzov Ceyhun Mirzəbaba oğlu – kapitan**

"İgidliyə görə" medalı ilə təltif edilmişlər.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib



İyunun 25-də Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Müstəqillik dövründə ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan dünya birliyində öz layiqli yerini tutmuşdur. Görülən işlər sırasında ordu quruculuğu mühüm əhəmiyyət daşıyır. Ümummilli liderimiz Heydər Əliyevin 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi qəbul etdiyi ilk qərar Naxçıvanda Dövlət Milli Müdafiə Komitəsinin yaradılması oldu. Həmin dövrdə qəbul olunan bu qərar Naxçıvanın müdafiəsi ilə yanaşı, həm də ölkəmizin ordu quruculuğu tarixində mühüm mərhələdir. 1992-ci il sentyabrın 15-də Dövlət Milli Müdafiə Komitəsinin bazasında 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada, 1995-ci il mayın 21-də isə motoatıcı briqadanın nəzdində motoatıcı diviziya yaradıldı. O dövrdə ulu öndərin həyata keçirdiyi ordu quruculuğu tədbirlərinin tərkib hissəsi kimi Naxçıvanda diviziyanın yaradılması böyük qətiyyət tələb edirdi.

Ali Məclisin Sədri demişdir: 1998-ci ilin dekabrın 8-də isə Naxçıvan ordu korpusu yaradıldı. Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında dövrün tələbinə uyğun olaraq ordu quruculuğu sahəsində görülən işlər bütün sahələrdə inkişafı təmin etmişdi. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır"***. Bu gün ulu öndərimizin ordu quruculuğu siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan ordusu dünyanın güclü orduları sırasında öz yerini tutub. Görülən işlərin nəticəsi olaraq Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanı ilə 5 saylı ordu korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb.

Ali Məclisin Sədri demişdir: Son illər muxtar respublikada ordu quruculuğu sahəsində görülən tədbirlər, Günnüt əməliyyatı, Sədərək rayonunda torpaqların işğaldan azad olunması, sərhədlərin möhkəmləndirilməsi və digər tədbirlər bir daha təsdiq etdi ki, Əlahiddə Ümumqoşun Ordunun yaradılması və fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Bütün bunlar ölkə Prezidentinin muxtar respublikanın müdafiə təhlükəsizliyinin təmin olunmasına göstərdiyi diqqətin nəticəsidir. Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə muxtar respublikada mərkəzi qərargah və təlim-tədris mərkəzi təşkil edilmiş, Silahlı Qüvvələrimizin Naxçıvandakı bütün ordu, birləşmə və hissələrinin daxil olduğu Naxçıvan Hərbi Qarnizonu formalaşmış, vahid fəaliyyət proqramı müəyyənləşdirilmişdir.



26 İyun Azərbaycanda Silahlı Qüvvələr Günüdür. Bu gün hər kəs ordumuzla qürur duyur, Silahlı Qüvvələr Günü bayram kimi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 25 iyun tarixli Sərəncamına əsasən Naxçıvan Hərbi Qarnizonunun rəisi Kərəm Nəriman oğlu Mustafayevə general-polkovnik ali hərbi rütbəsi verilmiş, digər Sərəncamla isə 5 zabit orden və medallarla təltif olunmuşdur.

Ali Məclisin Sədri 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Silahlı Qüvvələrimizin Naxçıvandakı ordu, birləşmə və hissələrinin şəxsi heyətini, onların ailə üzvlərini, şəhid ailələrini, müharibə veteranlarını, muxtar respublika əhalisini təbrik etmiş, general-polkovnik ali hərbi rütbəsini Kərəm Mustafayevə təqdim etmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev çıxış edərək demişdir: "Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı hərtərəfli, məqsədyönlü siyasət nəticəsində ordumuz nəinki Cənubi Qafqazda, hətta Müstəqil Dövlətlər Birliyi məkanında öz gücü ilə seçilən ordudur. Ulu öndərin böyük ruhu qarşısında baş əyir, cənab Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanına və Ali Məclisin Sədrinə minnətdarlığımı bildirirəm".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



*26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür*

# Qüdrətli ordumuz qələbə əzmindədir

***Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə Əlahiddə Azərbaycan korpusunun yarandığı tarix – iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olunmuşdur.***

Ölkəmizdə güclü, nizami və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atılmışdır. Görkəmli dövlət xadiminin gələcəyə hesablanmış uzaqgörən siyasətinin nəticəsində ötən əsrin 70-ci illərində ölkəmizdə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, bu mənada, mühüm əhəmiyyət daşıyır. Dahi liderin şəxsi təşəbbüsü ilə hazırlanan hərbçi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli Milli Ordusunun peşəkar komandan heyətini təşkil etmişdir. Peşəkar ordunun yaradılmasına isə ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanılmışdır. Belə ki, xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılmış, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul edilmişdir. Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilmişdir. 1992-ci il sentyabrın 15-də Naxçıvan ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilmişdir. Ümummilli lider Heydər Əliyev sonralar həmin tarixi qərarı belə xarakterizə etmişdir: ***"1990-1991-ci illərdə Naxçıvanın torpaqlarını qorumaq, Ermənistanın hərbi təcavüzünə cavab vermək üçün sentyabrın əvvəlində… bizim ilk addımlarımızdan biri Naxçıvanda Müdafiə Komitəsi yaratmaq oldu. Bununla da biz Naxçıvanda mütəşəkkil silahlı qüvvələr yaratmaq prosesinə başladıq. Biz burada Azərbaycanın Milli Ordusunu yaratdıq".***



1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda Silahlı Qüvvələrin təkmilləşməsi prosesi yeni mərhələyə qədəm qoymuş, ordu quruculuğu diqqət mərkəzində saxlanılmışdır. Qısa müddətdə ordumuzun strukturu tam formalaşdırılmış, bütün növ hərbi birləşmələr yaradılaraq komplektləşdirilmişdir. Eyni zamanda görkəmli dövlət xadiminin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradılmış, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edilmişdir. Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulmasına diqqət yetirilmiş, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulmuşdur. Hazırda Silahlı Qüvvələrimizin əsgərləri sülhməramlı qismində müxtəlif münaqişə zonalarında iştirak edirlər.





Əsası ulu öndərimiz tərəfindən qoyulan ordu quruculuğu işi bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı ordumuzun büdcəsinin artmasına, nəticə etibarilə, Silahlı Qüvvələrimizin döyüş arsenalının ən müasir silah və texnikalarla təminatına şərait yaratmışdır.



Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Bu sahədə görülmüş işlərdən ən diqqətçəkəni muxtar respublikanın təhlükəsizliyinin qorunması məqsədilə dövlət başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılmasıdır. Bu əlamətdar hadisə Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaratmışdır. Ölkə Prezidenti bu barədə demişdir: ***"Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".***

Bu gün muxtar respublikamızda ordu quruculuğu sahəsində mühüm işlər görülür. Hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Son illər muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlər 2020-ci ildə də uğurla davam etdirilir. Cari il aprelin 23-də Sədərək rayonunun Heydərabad qəsəbəsindəki əsgəri-yaşayış kompleksi yenidən qurularaq istifadəyə verilmişdir. Ordu quruculuğu tədbirləri çərçivəsində hazırda Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordunun müasir Mərkəzi Hərbi Xəstəxanasının, Naxçıvan Təlim Mərkəzində 3 mərtəbəli əsgəri-məişət kompleksinin, yeni qərargah binası və 2 yataqxananın, hərbi zavodun, hərbi hava qüvvələri üçün yeni hərbi hissənin tikintisi aparılır, Şahbuz şəhərində yerləşən hərbi hissənin əsgəri-məişət kompleksində əsaslı təmir işləri görülür.



Hər il muxtar respublikada yeni xidmət və yaşayış komplekslərinin tikilməsi ilə yanaşı, həm də hərbi hissələr üçün müxtəlif təyinatlı avtomobil və texnikalar alınaraq istifadəyə verilir. Bu və digər işlərin büdcə qənaəti hesabına həyata keçirilməsi isə muxtar respublikada mövcud resurslardan səmərəli istifadə olunduğunu göstərir. Bu il aprelin 23-də 10 "Qazel" markalı yük, eləcə də "Ford" və "Volkswagen" markalı 2 minik avtomobili Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə təqdim olunmuşdur. Bütün bunlar belə deməyə əsas verir ki, Naxçıvanda dövlət-xalq-ordu birliyi özünün ən yaxşı ifadəsini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tez-tez sərhəd bölgələrindəki hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin həyat tərzi və problemləri ilə mütəmadi olaraq maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olmuşdur.

Son illər görülən işlərin, atılan məqsədyönlü addımların nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu 2017 və 2018-ci illərdə döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülmüşdür. 2017-ci il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü bütün dünyaya nümayiş etdirmişdir. 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklərə yiyələnməsi isə bu gücün praktik nəticəsini ortaya qoymuşdur. Ötən ilin iyun ayında isə Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələri bölmələrinin birgə döyüş atışlı "Sarsılmaz qardaşlıq – 2019" taktiki təliminin nəticələri onu göstərdi ki, Naxçıvan ordusu istənilən təhdidə layiqli cavab verməyə, istənilən tapşırığı yerinə yetirməyə tam hazırdır. Türkiyə və Azərbaycan Silahlı Qüvvələri rəhbərlərinin iştirak etdiyi, 5 min nəfərədək şəxsi heyətin, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnikaların cəlb olunduğu bu möhtəşəm təlim düşmənlərimizə əsl gözdağı oldu. Keçirilən təlimlə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Ordu quruculuğu tədbirləri sırasında hərbi təlimlərin əhəmiyyəti böyükdür. Çünki təlimlər əsgər və zabitlərdə hərbi vərdişləri formalaşdırır, onların döyüş hazırlığını artırır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, "Hər hansı bir ordunun dəyəri onun əsgər və komandan heyətinin dəyəri ilə ölçülür". Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, təlimə cəlb olunmuş şəxsi heyətlərdə yüksək döyüş hazırlığı vardır".***



Ali Məclis Sədrinin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də hərbi kadr hazırlığı ilə bağlıdır. Ötən dövrdə göstərilən böyük dövlət qayğısı hesabına Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilmiş, kursantlar üçün müasir tədris və məişət şəraiti yaradılmışdır. İndiyədək minlərlə kursantın təhsil aldığı, bu il iyirminci buraxılışı olan lisey ordumuzun peşəkar zabitlərlə təminatında böyük rol oynayır.

*Bu gün ordumuzun döyüş və vətənpərvərlik ruhu, təmas xəttində düşmənin təxribat xarakterli hərəkətlərinə vaxtında layiqli cavab verilməsi hər birimizdə qürur hissi doğurur. Ölkəmizdə dövlət-xalq-ordu birliyinin möhkəmliyi belə deməyə əsas verir ki, Azərbaycan əsgərinin xalqımıza qələbə sevincini yaşadacağı, üçrəngli bayrağımızın işğal altında qalan torpaqlarımızda da dalğalanacağı gün yaxındadır.*

**"Şərq qapısı"**

# Vətən eşqi, döyüş əzmi, qələbə ruhu...

*Doğma məmləkətimiz, ana yurdumuz, babalarımızın, dədələrimizin əmanəti, tariximiz, azadlığımız Vətəndir... Vətən təkcə müəyyən sərhədləri olan coğrafi bir məkan yox, uğrunda canımızdan keçərək qanlar tökdüyümüz, üzərində gözümüzü dünyada açdığımız müqəddəs torpaqdır. Vətən həm də "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" şüarı ilə müqəddəs amal uğrunda döyüşə atılan, düşmənə sinə gərən qeyrətli oğulların, şəhidlik zirvəsinə yüksələnlərin məskənidir...*

Bu gün doğma Vətənimiz Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, müasir maddi-texniki bazaya, silahlara malik olan güclü nizami ordusu vardır. Ordumuzun sıralarında qulluq edən əsgərlərimiz bir vaxtlar torpaqlarımızın azadlığı uğrunda qorxmadan mübarizəyə atılan, yaralanan, sağlamlığını itirən, şəhid olan cəsur ataların övladlarıdır… Bu gün ölkəmizdə və onun ayrılmaz hissəsi olan muxtar respublikamızda şəhid ailələrinə, müharibə iştirakçılarına və sağlamlıq imkanları məhdudlaşmış şəxslərə hərtərəfli dövlət qayğısı göstərilir, müvafiq kateqoriyadan olan insanlara mənzil və minik avtomobilləri verilir, sağlamlıqlarının qayğısına qalınır, onlar müalicəyə göndərilirlər.

***Tofiq Mehdiyev*** də dövlətin diqqət və qayğısı ilə əhatə olunmuş müharibə veteranlarımızdan biridir. 1959-cu ildə Babək rayonunun Nehrəm kəndində (indiki qəsəbə) anadan olan Tofiq müəllim 1980-1998-ci illər arasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin xüsusi qoşun növü olan Hərbi Hava Qüvvələrinin sıralarında xidmət edib. Müsahibim həmin vaxtları belə xatırlayır:– Naxçıvan həmişə Azərbaycanın strateji və diqqəti cəlb edən bölgəsi olub. Xəyanətkar qonşumuz ermənilər dəfələrlə bu diyarı ələ keçirmək, öz ərazilərini bu torpaqlar hesabına genişləndirmək iddiasında olublar. Ermənilərin hücumlarına məruz qalan Sədərək, Babək rayonunun Buzqov-Gərməçataq kəndlərində gedən döyüşlərdə hərbçi kimi iştirak etmişəm. Erməni-rus hərbi birləşmələrinin 1988-ci ildən başlayan silahlı hücumlarını, Kərki kəndinin işğalını, Sədərəyin mühasirəsini yaxşı xatırlayıram. Ağır sınaqla üz-üzə qalan Sədərəkdə atılan top mərmiləri ilə neçə-neçə evlər, ictimai, inzibati binalar, sosial obyektlər dağıdıldı. O vaxt Naxçıvanın müxtəlif bölgələrindən köməyə gələn oğullarımız Sədərək uğrunda birləşdilər. Çoxlu şəhidlər verdik, yaralananlar oldu. Yaralılar arasında dostlarım da var idi. O dəhşətli anları göz önünə gətirəndə qəlbim sızlayır. Həmin dövrdə Naxçıvana gələn ulu öndər Heydər Əliyevin Sədərək əhalisini daha dözümlü və əzmkar olmağa, düşmən qarşısında mətanətlə dayanmağa səsləməsi, məğrur əsgərlərimizin gücü, birliyi ilə Sədərək düşmən hücumundan xilas oldu. O vaxt sədərəklilər üçün 90-cı illərin o dəhşətli, əzab dolu günləri geridə qalıb. Bu gün müzəffər ordumuzun məğrur əsgərləri Naxçıvanın qeyrət qalası olan Sədərəyin keşiyini çəkir. İndi yurdumuzu etibarlı müdafiə edən və hər an işğal altındakı torpaqlarımızı azad etməyə qadir olan güclü ordumuz vardır. Onların vətənpərvərliyini, cəsarətini, torpaq sevgisini, bacarıqlarını, hərbi biliklərinin zənginliyini, yüksək peşəkarlığını gördükcə ürəyimiz açılır, qəlbimizi qürur hissi bürüyür. Yaxşı xatırlayarsınız, ötən illərdə ordumuzun Naxçıvan istiqamətində uğurlu Günnüt əməliyyatına imza atması göstərdi ki, bu gün əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Biz də dövlətimizin sadiq əsgəri, təcrübəli döyüşçüsü kimi silaha sarılmağa, işğal altında olan torpaqlarımızı azad etməyə hər zaman hazırıq.



İştirakçısı olduğu döyüşlərdən sonra sağlamlığını qismən itirən Tofiq müəllim dövlətimizin müharibə veteranlarına göstərdiyi qayğıdan razılıqla danışır: – Bu gün müharibə veteranlarına böyük qayğı var. Mən də evlə təmin olunmuşam, Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alıram. Bizə göstərilən qayğıya görə dövlətimizə minnətdaram.

Səngərlərdə mərd oğullarımızla çiyin-çiyinə, birgə döyüşən, yaralanan igidlərə yardım edən qadınlarımız da az olmayıb. Müharibə veteranı ***Kəmalə Hüseynova*** da belə cəsur qadınlarımızdan biridir. 1957-ci ildə Babək rayonunda anadan olan Kəmalə xanım Naxçıvan Tibb Kollecini müvəffəqiyyətlə bitirib. Uşaq vaxtlarından Vətənə sevgisi, hərbi sahəyə marağı onu 1990-1993-cü illərdə Naxçıvan hərbi hissələrində hərbi tibb bacısı kimi işləməyə qədər gətirib çıxarır. Kəmalə xanım o illəri belə xatırlayır: – O vaxt qızğın döyüşlərin getdiyi Sədərək bölgəsinin "Cin təndiri"deyilən ərazisində qəfil erməni əsgəri ilə üz-üzə gəldim. Onunla mübarizəyə atıldım, bir neçə dəfə mənə atəş açıldı, bu güllələrdən qurtulmaq üçün özümü tikanlı kolların içərisinə atdım. Ardı-arası kəsilməyən düşmən güllələri neçə-neçə mərd oğullarımızı şəhid etdi, neçəsi yaralandı. Xatirimdədir, xəsarət alanlar arasında Bakı şəhərindən olan Firudun adlı oğlan da var idi. Onun yaralandığını görəndə güllə yağışına baxmayaraq, özümü önə atdım, vaxtında onu hərbi hissəyə çatdırıb, ölümdən qurtardım. Şərur rayonunun Maxta kəndindən olan yaralı bir əsgəri hərbi hospitala çatdırdım, lakin artıq gec idi, o, şəhidlik kimi uca bir zirvəyə yüksəldi. O qanlı-qadalı günlər artıq geridə qalıb. Amma həmin günlər olmasaydı, bu günümüzün qədrini bilməzdik. O döyüşlərdə iştirak edən el-oğullarımızın şücaətini, qətiyyətini bu gün qədim Naxçıvanın keşiyində inamla dayanan, muxtar respublikamızın müdafiəsində ona həvalə edilmiş missiyanı şərəflə yerinə yetirən cəsur oğullarımız davam etdirir. Bu gün dövlətimizlə, ordumuzla, rəhbərimizlə fəxr edir, qürur duyuruq. Cənab Prezidentimizin sərəncamı ilə bizə aylıq təqaüdün ayrılması da müstəqil liderimizin yoluna böyük sədaqətin, veteranlara göstərilən dərin hörmət və ehtiramın nəticəsidir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün cəmiyyətimizdə müharibə veteranlarına böyük hörmət və ehtiram vardır. Onların döyüşlərdə göstərdikləri rəşadət, müharibədən sonrakı bərpa və quruculuq illərində çəkdikləri zəhmət Vətənə xidmət nümunəsi – həyat dərsidir. Vətəni sevmək, Vətən torpağını qorumaq və mənsub olduğu ölkəni inkişafa qovuşdurmaq dərsidir. Gənc nəsil bu dərsi mənimsəyərək özündən sonrakı nəsillərə ötürməli, nəsillər arasındakı varislik ənənələri davam etməlidir".***

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri sırasında xidmət edən, keçmiş döyüşçülərin, qəhrəmanlarımızın yolunu davam etdirən gənc hərbi qulluqçular kifayət qədərdir. ***Vüsal Abdurahmanov*** da onlardan biridir. O, 1984-cü il dekabrın 24-də Şəkinin Baş Göynük kəndində anadan olub. Həmin kəndin tam orta məktəbində təhsil alıb. 2002-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və motoatıcı ixtisasına yiyələnib. 4 ildir ki, Əlahiddə Ümumqoşun Orduda xidmət edir. Nümunəvi xidməti ilə taqım komandirindən idarəetmə heyətinin zabitinə qədər yüksəlib və ona vaxtından əvvəl mayor hərbi rütbəsi verilib. Ölkəmizdə və xaricdə təşkil olunan bir neçə beynəlxalq səviyyəli kurs və təlimlərdə iştirak edib. Naxçıvan şəhərindəki hərbi şəhərcikdə xidməti mənzillə təmin olunub.



O deyir: – Hərbçi olmaq, Vətənin müdafiəsində dayanmaqdan müqəddəs vəzifə ola bilməz. Təhsil aldığım illər ərzində arzuladığım və sevdiyim peşənin sirlərinə yiyələnmək üçün hər zaman fəallıq göstərmişəm. Bu peşənin məsuliyyətini yaxşı dərk edirəm. Naxçıvanda xidmət etməkdən isə ayrıca qürurluyam. Hazırda Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan müxtəlif hazırlıq kurslarında, hərbi qulluqçuların peşəkarlığının artırılması üçün kurs və təlimlərdə qazandığım bilik və bacarığı kursant və əsgərlərlə bölüşürəm. Naxçıvan Qarnizonu Qoşunlarında gənc əsgərlərin hazırlığı da daxil olmaqla, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, qadın hərbi qulluqçu, gizir, ehtiyat zabit hazırlığı, zabit heyətinin ixtisasdəyişmə və təkmilləşdirmə kursları keçirilir. Bu kurslar hərbi qulluqçu olmaq istəyən gənclərin hərbi-nəzəri biliklərinin və praktik vərdişlərinin formalaşmasında mühüm rol oynayır. Hərbi xidmət keçən gənclər vətənpərvər, mərd, cəsur olurlar. Verilən tapşırıqları vaxtında və dəqiqliklə yerinə yetirir, döyüş növbələrində ayıqsayıq xidmət edirlər. Bu gün qürurla, demək olar ki, hər bir hərbi qulluqçu işğalda olan torpaqlarımızı düşmən tapdağından azad etmək və onlardan qisas almaq üçün tam hazırdır.

Artıq ordumuzun bütün qoşun növlərində, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə yüzlərlə qadın xidmət edir. ***Nərgiz Qədimbəyli*** də Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan şəhərində yerləşən hərbi hissəsində xidmət edən gənc qadın hərbi qulluqçularımızdandır. Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində Kitabxanaçılıq ixtisası üzrə ali təhsil alsa da, hərbi sahəyə marağı onu Naxçıvan Qarnizonu Qoşunları sırasına qatılmağa həvəsləndirir. Əvvəlcə qadın hərbi qulluqçu hazırlığı kursunda iştirak edib. Kursu kargüzarlıq ixtisası üzrə birinciliklə başa vuraraq xidmətə başlayıb. O deyir ki, dövlətimizin diqqət və qayğısı sayəsində cəmiyyətin ictimai-siyasi həyatında qadınlarımızın fəallığı artıb. Hərbi hissələrdə də nümunəvi xidməti ilə seçilən hərbçi qadınlarımız çoxluq təşkil edir. Vətənpərvərlik, qəhrəmanlıq, fədakarlıq, torpağa, xalqa, dövlətə sevgi hissləri hərbçi qadınlarımızı bu peşəyə cəlb edir. Bütün qadınlar, analar kimi hərbi qulluqçu olan, mülki vəzifələrdə işləyən qadınlar da torpaqlarımızın işğaldan azad ediləcəyi günün intizarındadır. Son illər muxtar respublikamızda qadın hərbi qulluqçuların fəaliyyəti üçün müasir xidmət şəraitinin yaradılması bu sahənin arzusunda olan qadınların istəyini gerçəkləşdirib. Yaradılan şəraitin nəticəsidir ki, hərbçi olmaq istəyən qadınlar Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən kurslara cəlb edilir, təlimlərdə bilik, bacarıq və peşəkarlıq qazanırlar. Müxtəlif ixtisaslar üzrə hazırlanan qadın hərbi qulluqçular birləşmə və hissələrdə ixtisaslarına uyğun vəzifələrə təyin edilir, onların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Tarixin bütün dönəmlərində mərdliyi və şücaəti ilə seçilən Azərbaycan qadını bu gün də mətanəti və iradəsi ilə ciddi intizam tələb edən hərb sənətinin də öhdəsindən layiqincə gəlir, vəzifə borclarını şərəflə yerinə yetirir.



*Müharibə veteranlarımız və gənc hərbi qulluqçularımızla söhbətimizdən belə bir nəticəyə gəlmək olar ki, müharibə şəraitində yaşayan ölkəmizdə, eləcə də onun dilbər guşəsi, nəfəs-nəfəsə dayandığı mənfur düşmənimiz ermənilərin iştah dişini məğrurluğu, əzəməti ilə sındıran qədim diyarımız Naxçıvanda ordu quruculuğu sahəsində atılan addımlar ordumuzda ruh yüksəkliyini hər keçən gün daha da artırır, gələcək zəfərlərə, qələbələrə stimul verir. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt zəfəri bir daha göstərir ki, Azərbaycan Ordusu hər an torpaqlarımızı işğaldan azad etməyə hazırdır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

---

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın birinci instansiya məhkəmələrinin əməkdaşlarının iştirakı ilə onlayn seminar keçirilib.*

## "Məhkəmə statistikası" mövzusunda onlayn seminar



Seminarı nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri Səttar Zamanov açaraq qeyd edib ki, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada hər yarımildə bir dəfədən az olmayaraq məhkəmələr tərəfindən statistik hesabatlar tərtib edilir. Mövcud sahədə olan yenilikləri və bilikləri təkmilləşdirmək məqsədilə hər hesabat dövrünün sonunda nazirlik tərəfindən bu sahədə seminarlar təşkil olunur. Məhkəmə statistikası hesabat dövrü ərzində məhkəmələrin icraatında olan işlərin ümumiləşdirilməsinin aparılması, təhlil edilməsi və onların təsnifatının müəyyənləşdirilməsi nəzərdə tutulur.

Seminarda 2020-ci ilin birinci yarımilinin başa çatması, məhkəmə fəaliyyətinə dair statistik hesabatların tərtib edilməsi məqsədilə keçirilən onlayn seminarda məhkəmə fəaliyyətinə dair statistik hesabat formaları barədə ətraflı məlumat verilib.

Sonda mövzu ətrafında müzakirələr aparılıb.

**Naxçıvan Muxtar Respublikası**
**Ədliyyə Nazirliyinin mətbuat xidməti**

---

## Babək şəhərinə yeni marşrut xətti işləyəcək

Muxtar respublikada nəqliyyat xidmətinin müasir səviyyədə qurulması daim diqqət mərkəzində saxlanılır, vətəndaşların mənzilbaşına vaxtında və təhlükəsiz çatması üçün mühüm addımlar atılır. Artan əhali sayına nümunəvi sərnişindaşıma xidmətinin təşkili tədbirləri çərçivəsində yeni marşrut xətlərinin istifadəyə verilməsi də diqqətdə saxlanılır. Bu işlərin davamı kimi artıq 6 nömrəli marşrut xətti Babək şəhərində də fəaliyyət göstərəcək.



Qeyd edək ki, əvvəllər Babək şəhər sakinləri və ya yolu rayon mərkəzinə düşən sərnişinlər Nehrəm-Babək marşrutundan istifadə edirdilər və buna görə də sıxlıq ucbatından çətinlik yaşanırdı. Naxçıvan şəhərinin daxilində fəaliyyət göstərən 6 nömrəli marşrut xəttinin artıq Babək şəhərinə də işləməsi sakinlərin mənzilbaşına vaxtında çatmalarına şərait yaradacaq. Marşrutu həyata keçirən avtobuslar komfortlu və müasirdir. Gün ərzində 6 avtobusun işləyəcəyi Naxçıvan-Babək şəhər marşrutu səhər saat 7[00]-da Naxçıvan şəhərindəki avtovağzaldan yola çıxacaq və 12 dəqiqəlik intervalla hərəkət edəcək. Qeyd edək ki, yeni fəaliyyətə başlayan marşrut xətti sakinlər tərəfindən razılıqla qarşılanıb.

**Muxtar RZAZADƏ**

---

## Videotəlim keçirilib



***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində "Dövlət qulluğunda etik davranış qaydaları" adlı videotəlim keçirilib.***

Təlimə Maliyyə Nazirliyinin tabeliyində olan rayon və şəhər idarə və şöbələrində çalışan 20 dövlət qulluqçusu cəlb olunub. Təlimin əsas məqsədi dövlət qulluğunda etikanın əhəmiyyəti, dövlət qulluqçularının riayət etməli olduğu əsas etik davranış qaydaları barədə dövlət qulluqçularını məlumatlandırmaqdır.

İlk olaraq Maliyyə Tədris Mərkəzinin əməkdaşı Zəhra İsmayılova iştirakçılara təlimin mahiyyəti və aktuallığı barədə məlumat verib. Sonra təlim Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın baş məsləhətçi-hüquqşünası Türkan Gülməmmədlinin "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda çıxışı ilə davam edib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası**
**Maliyyə Nazirliyinin mətbuat xidməti**

# Dağlar da Vətəndir







**Vətən müqəddəsdir oğullar üçün**
**Ucaldar adını şərəfli adla.**
**Dağlar da Vətəndir qartallar üçün**
**Qucar zirvələri qoşa qanadla.**
**Bir yuva qurubdur adi daşında**

**Düşüb ildırıma, itəni olub.**
**Bir yuva xətrinə o boyda dağlar**
**Qartalın əbədi Vətəni olub.**
**Sədaqət, etibar qaynar qanında**
**Zirvələr üzünə hər an açıqdır.**

**Qartallar qayadan qanadlananda**
**Dağlar arxayındır, qayıdacaqdır.**
**Vətən müqəddəsdir oğullar üçün,**
**Dağlar da Vətəndir qartallar üçün.**

**Muxtar QASIMZADƏ**

# Alınmaz qalanın tarixi

***Əlincə qalasının tarixi haqqında orta əsr ərəb, fars, Azərbaycan, türk, gürcü və Qərbi Avropa mənbələrində kifayət qədər məlumatlara təsadüf edilir. Lakin qalanın salınma tarixi dəqiq müəyyənləşdirilməmişdir. Azərbaycan xalqının həyatını, məişətini, adət-ənənələrini, yüzlərlə yer adlarını özündə əks etdirən, ən qədim yazılı mənbələrdən biri olan "Kitabi-Dədə Qorqud" dastanında da "Əlincə" sözü işlədilir. Dastandakı "Uşun qoca oğlu Səgrək boyu"nda Əgrəyin Əlincə qalasında əsir düşməsi və qardaşı Səgrəyin onu xilas etməsi göstərilir. "Əlincə" sözü "Kitabi-Dədə Qorqud" dastanında həm də qala kimi xatırlanır.***

"Kitabi-Dədə Qorqud" dastanı Əlincə qalasından bəhs edən ilk yazılı mənbədir. Bəzi tədqiqatçıların fikrincə, Əlincə qalası eranın əvvəllərində inşa edilmiş, eramızın V əsrində bərpa edilmişdir. "Əlincə" toponimi "alan" tayfalarının adı ilə bağlıdır. Alanların eramızın 72-74-cü illərində Dəryal keçidi vasitəsilə Cənubi Qafqaz, o cümlədən Qafqaz Albaniyası istiqamətində yürüş etməsi haqqında geniş məlumatımız vardır. Bəzi tədqiqatçıların fikirlərinə görə, "Əlincə" toponimi qədim türk mənşəli alan (meydan, düzənlik) coğrafi termini ilə əlaqədardır. Naxçıvan qalalarından bəhs edən professor Mirəli Seyidov qalanın ilkin adının "Ermcaq" olduğunu yazmışdır. Ermcaq iki tərkibdən yaranmış mürəkkəb söz-addır. "Eriq" əksər türk dillərində çoxmənalı sözdür. Sözün möhkəm, qüvvətli, hakimiyyət mənaları vardır. "Caq" kəlməsi isə Azərbaycan dilində "yer", "məkan" bildirən şəkilçidir. Beləliklə, "Ermcaq" möhkəm, qüvvətli, dövləti, hakimiyyəti olan yer deməkdir. Xalq etimologiyasına görə, "Əlincə" toponiminin izahı "əlini çək" mənasını verir.

Dastandakı məlumatdan aydın olur ki, hadisələr baş verən vaxt Əlincə qalası Qara Təkurun əlində olmuş, qaladan həm müdafiə qalası, həm də zindan kimi istifadə edilmişdir. Səgrək Qara Təkurun onun üstünə göndərdiyi adamları qalaya həbs etmiş, qalanın zindanında saxlanılan Əgrək azad edildikdən sonra isə onunla birlikdə Qara Təkurun adamlarını basmış, döyüşmüş və qalada həbs etmişdir. Dastanda qeyd edilir ki, "Bundan sonra Dərəşam suyunu keçmiş, ...Oğuzun sərhədinə yetişmişdilər".

1300 illik tarixə malik olan "Kitabi-Dədə Qorqud" dastanında qalanın adının xatırlanması təsdiq edir ki, Əlincə qalası VII əsrdə mövcud olmuşdur. Bu mənbəyə əsaslanan tədqiqatçılar qalanın əsasının VII əsrdən əvvəl qoyulduğunu qeyd edirlər. Sıldırım dağların başında yerləşən Əlincə qalası alınmaz qala sayılırdı. Hülakülər, Çobanilər və Cəlairilərin basqınları nəticəsində ələ keçirilən saysız xəzinələrin zamanla Əlincə qalasında saxlanılması bununla bağlı idi. Əmir Teymurun qoşunları Əlincə qalasında kəskin müqavimətə rast gəlmişdi. Teymurun qoşunları 1386-cı ildə Azərbaycan torpaqlarına daxil olduğu vaxt Təbrizi tərk etmiş Cəlairi əmirlərinin bir qismi Əlincə qalasına toplaşmışdı. Cəlairilər bu qalanın strateji əhəmiyyətini nəzərə alaraq onu həmişə möhkəmləndirməyə çalışırdılar. Cəlairilər dövlətinin xəzinəsi qalada gizlədildiyi üçün Sultan Əhməd Əlincə qalasının müdafiəsini oğlu Məlik Tahirə və sərkərdə Əmir Altuna həvalə etmişdi.

Əmir Teymur Təbrizi, Sultaniyyəni ələ keçirdi. Cəlairi hökmdarı Sultan Əhməd bütün əmlakını Təbrizdə qoyaraq qaçmağa məcbur oldu. Həmin il Naxçıvanın yaxınlığında Teymurun əmirlərindən İlyas Xoca ilə Sultan Əhmədin qoşunları arasında kəskin döyüş baş verdi. İlyas Xocanın bu döyüşdə təsadüfən yaralanması Sultan Əhmədi məğlubiyyətdən xilas etdi. Mərkəzi Asiyada xalq iğtişaşları baş verdiyindən Teymur oraya qayıtmalı oldu. 1386-cı ilin əvvəllərində Qızıl Orda hökmdarı Toxtamış xanın 90 min nəfərlik qoşunu Bəy Poladın sərkərdəliyi altında Azərbaycan ərazisinə yürüş etdi, lakin işğalçılar Naxçıvanı, Təbrizi, Marəndi, Marağanı ələ keçirərək qarət etdilər. Toxtamış xan Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda çox qala bilmədi, geldiyi yol ilə geri qayıtmağa məcbur oldu. Bu hadisədən az bir müddət sonra, 1387-ci ildə Əmir Teymurun qoşunları Azərbaycanın cənub torpaqlarının çox hissəsini tutaraq Naxçıvan şəhəri üzərinə hücuma keçdi. Teymurun ordularına onun əmirlərindən İlyas Xoca adlı bir feodal sərkərdəlik edirdi. O, Naxçıvanı ələ keçirsə də, şəhərin yaxınlığında möhkəm qala olan Əlincə qalasını tuta bilmədi. Azərbaycanın ayrı-ayrı feodal hakimləri, Şəki hakimi Seydi Əli Oyrat və Gürcüstan dövləti Teymuri qoşunlarına zərbə vurmaq, onun irəliləməsinə imkan verməmək məqsədilə Əlincə qalasının müdafiəçilərinə yaxından köməklik göstərdilər. Əlincə qalasının müdafiəçiləri bir çox çətinliklərə tab gətirərək, müəyyən fasilələrlə on dörd il – 1387-ci ildən 1401-ci ilədək mühasirə şəraitində Teymurun qoşunlarına qarşı mübarizə apardılar. Onlar ayrı-ayrı hallarda Teymurun qoşunlarına ağır zərbələr vura bildilər. Əmir Teymur Əlincə qalasını tutmaq məqsədilə yeni qüvvələr göndərsə də, heç bir müvəffəqiyyət əldə edə bilmədi.



Əlincə qalasındakı qələbə Cənubi Qafqaz ölkələrində böyük ruh yüksəkliyinə səbəb olmuşdu. Azərbaycanın və Gürcüstanın feodal hakimləri öz qüvvələrini cəmləşdirərək mübarizəni davam etdirdilər. Cənubi Qafqaz feodal hakimlərinin vahid cəbhə təşkil etmək cəhdləri Teymuru çəkindirdiyi üçün o, Əlincə qalasının ətrafında müəyyən miqdarda qoşun saxlayaraq, özünün əsas qüvvələri ilə Ermənistan və Gürcüstan üzərinə hücuma keçdi. Lakin Teymur qalanı müqavimətsiz ələ keçirir. Bunun səbəbi Cəlairilər arasında ailə zəminində yaranan ixtilaf idi. 1401-ci ildə Əlincə qalası tutulduqdan sonra Əmir Teymur öz möhkəmliyi ilə onu heyrətə salan bu qalanı xüsusi ziyarət etmişdi...

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycançılıq ideyalarının layiqli davamı olaraq muxtar respublikamızda tariximizə, milli mədəni irsimizə milli müstəqillik işığında həssas və yanarlı münasibət bir vaxtlar araşdırmalardan, diqqət və qayğıdan kənarda qalan Əlincəni də öz ağuşuna almışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası ilə alaqədər muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılarkən Əlincəqala haqqında da məlumatlar toplanmış, Azərbaycan tarixinin yeni səhifələrinin açılmasına işıq salınmışdır. Bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilmişdir. "Muxtariyyət ili"nin əvvəllərində – 2014-cü il 11 fevral tarixində isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalanmışdır. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və AMEA Naxçıvan Bölməsinin elmi-bərpa layihəsi əsasında "Əlincəqala" tarixi abidəsi bərpa olunmuşdur. Dünya əhəmiyyətli bu abidədə bərpa işləri tarixi qaynaqlar əsas götürülərək aparılmışdır. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerlərinin ilkin forması saxlanılmışdır. Qalanın zirvəsinə doğru yol çəkilmiş, qala ərazisində işıqlandırma sistemləri yaradılmış, oturacaqlar qoyulmuş, yaşıllıqlar salınmışdır. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır. Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan "Tarixi yaşadanları tarix də yaşadacaqdır" fikri Əlincəqalanın bərpasının xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətliliyini bir daha təsdiqləyir, eyni zamanda milli tarixi irsimizə sahiblik, vətənpərvərlik, əzmkarlıq kimi milli-mənəvi keyfiyyətlərin də əbədiyaşarlılığını özündə əks etdirir.

2016-cı ildə "Əlincəqala" tarixi abidəsi və muzeyinin açılışı olmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılış tədbirində çıxış edərək demişdir: ***"Azərbaycan xalqının mübarizlik və vətənpərvərlik əzmini toplu halında nümayiş etdirən tarixi qalalarımızdan biri də Əlincəqaladır. Qala birinci-altıncı əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunmuş, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərmişdir. Naxçıvanın Azərbaycan Atabəylər dövlətinin paytaxtı olduğu dövrdə Əlincəqalanın iqtisadi və siyasi mövqeyi əhəmiyyətli dərəcədə artmışdır".***

Buradakı "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində isə həmin tarixi qalada məskunlaşmış insanların yaşayışını və döyüş sənətini özündə əks etdirən maddi mədəniyyət nümunələri, Əlincəqala ərazisindən aşkar olunmuş boyalı keramika parçaları – Azərbaycanda sənətkarlıq ənənələrinin qədim dövrlərdən formalaşdığını göstərən nadir eksponatlar nümayiş olunur ki, bu da qala sakinlərinin həyatı və qəhrəmanlıq tarixi haqqında dolğun təsəvvür yaradır. Təsadüfi deyil ki, əyilməzlik, məğrurluq, əzəmət rəmzi olan Əlincəqala artıq turistlərin də böyük maraq və ehtişamla ziyarət etdiyi bir məkana çevrilib.

***Bu gün Əlincəqalanın zirvəsində dalğalanan üçrəngli bayrağımız müzəffər xalqımızın mübarizlik tarixini təbliğ edir. Müqəddəs bayrağımız möhtəşəm qalanın köksündə dalğalanmaqla milli məfkurəmizi, tariximizi sevərək yaşadanların ideyaları işığında müstəqilliyimizin, dövlətçiliyimizin əbədi bərqərar olacağını bundan sonra da dünyaya bəyan edəcək.***

**Ulduz EYVAZOVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin tarix müəllimi***

## *İtmişdir*

Şərur rayonu, Yengicə kənd sakini Rzayeva Nəzakət Mirzə qızının adına olan JN-447A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Yarımca kəndində İbrahimova Səidə İbrahim qızının adına verilmiş 103013000491 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü, 10 mart 2015-ci il tarixli MH-0041188 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Qoşadizə məhəlləsi Xəlilova Fəridə Əli qızının adına olan 103013008266 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü, 24 oktyabr 2018-ci il tarixdə verilmiş MH-0061476 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 471